# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**1463 saylı 31 avqust 2012-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060209 – Psixologiya**

**BAKI – 2012**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060209 – Psixologiya** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060209 – Psixologiya** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

## 2. 060209 – Psixologiya ixtisasının xarakteristikası

**2.1.** Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060209 – Psixologiya**<br><br>**İxtisaslaşmalar:**<br>- *Ümumi psixologiya*<br>- *Sosial psixologiya*<br>- *Klinik psixologiya*<br>- *İnkişaf psixologiyası*<br>- *Hüquq psixologiyası*<br>- *Pedaqoji psixologiya*<br>- *Uşaq və yaş psixologiyası* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası**

Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektiv işləmək **(ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- fəal sosial mobillik **(ÜK-3);**
- beynəlxalq arenada işləmək **(ÜK-4);**
- hüquqi biliklər və etik normalara malik olmaq **(ÜK-5);**
- yeni ideyalar irəli sürmək **(ÜK-6);**
- müstəqil işləmək **(ÜK-7);**
- elmi-tədqiqat və elmi-istehsalat işlərinin təşkilində, elmi kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq **(ÜK-8);**
- təşəbbüskarlıq və liderlik **(ÜK-9);**
- işi təşkil etmək və planlaşdırmaq qabiliyyətinə malik olmaq **(ÜK-10).**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- fundamental elmi biliklərə istinad edib tədqiqatın metodoloji əsaslarını işləyib hazırlamaq **(PK -1);**
- tədqiqatın mövzusunu, məqsədini, vəzifəsini, fərziyyəsini müəyyənləşdirmək **(PK-2);**
- riyazi-statistik üsullardan istifadə etmək **(PK-3);**
- müasir kompyuter proqramlarından və elektron kitabxanalardan istifadə etmək **(PK-4);**
- elmi-tədqiqat işini aparmaq **(PK-5);**
- elmi araşdırmaların nəticələri təhlil və təqdim etmək **(PK-6);**
- elmi məqalələrin yazılma və çapa hazırlanma qaydalarını bilmək **(PK-7);**

***Pedaqoji sahə üzrə:***

- ali təhsilin bakalavriat səviyyəsində psixologiya ixtisası fənlərini tədris etmək **(PK-8);**
- tələbələrin fərdi işini təşkil etmək, metodik materialları hazırlamaq **(PK-9);**
- pedaqoji fəaliyyətində psixologiyanın tədrisi metodikasına əsaslanmaq **(PK-10);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilmək **(PK-11);**

***Praktik sahə üzrə:***

- fundamental və tətbiqi vəzifələrin həlli üçün psixoloji biliklərdən istifadə etmək **(PK-12);**
- inkişafetdirici proqramların yaradılmasında ümumi psixoloji biliklərdən istifadə etmək **(PK-13);**
- psixodiaqnostik işi və psixoloji ekspertizanı aparmaq **(PK-14);**
- psixokorreksiya işini aparmaq **(PK-15);**
- ixtisasına uyğun psixoloji mərkəzlərin fəaliyyətində müasir yanaşma və üsulları tətbiq etmək **(PK-16);**
- psixoloji treninqləri təşkil edib aparmaq **(PK-17);**
- ekstremal şəraitdə psixoloji yardım göstərmək **(PK-18);**
- profilaktika, konsultasiya və reabilitasiya işini aparmaq **(PK-19);**

***Təşkilatı-inzibatcılıq uzrə:***

- kollektivlərin elmi-tədqiqat işlərinə rəhbərlik etmək **(PK-20);**
- məktəb psixoloqunun işini səmərəli təşkil etmək **(PK-21);**
- ekstremal şəraitdə yardım prosesinə rəhbərlik etmək **(PK-22);**
- kadrların seçimində iştirak etmək **(PK-23);**
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etmək **(PK-24);**
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmaq, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmək **(PK-25);**
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilmək, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək **(PK-26);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin potensial nəticələri müəyyənləşdirmək və/və ya qiymətləndirə bilmək **(PK-27);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirmək **(PK-28);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilmək **(PK-29);**
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərmək **(PK-30);**
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımaq **(PK-31);**
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilmək, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamaq, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmaq **(PK-32);**
- davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək **(PK-33).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060209** – **Psixologiya** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- elmi-tədqiqat;
- pedaqoji;
- praktik;
- təşkilati-inzibatçılıq və s.

**4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**

***Elmi-tədqiqat sahəsi üzrə:***

- psixologiya elminin fundamental biliklərinə yiyələnib müasir üsullardan istifadə edib elmi, təşkilati və tətbiqi məsələlərin həlli yollarını araşdırmaq;
- elm və texnikanın nailiyyətlərindən, Azərbaycanın və xarici ölkələrin qabaqcıl təcrübəsindən istifadə etməklə psixologiya sahəsində aparılan elmi-tədqiqat işlərini təhlil etmək və nəticələri ümumiləşdirmək;
- elmi məruzələri hazırlamaq və təqdim etmək;
- elmi nəşrlər hazırlamaq və redaktə etmək;

***Pedaqoji sahə üzrə:***

- mühazirə oxumaq;
- məşğələ və seminar dərslərini aparmaq.

***Praktik sahə üzrə:***

- alınmış biliklərin köməyi ilə psixologiyanın fundamental və tətbiqi problemlərini təhlil edib problemin həlli yollarını müəyyənləşdirmək;
- müasir hesablama texnikasından və proqramlar təminatından psixologiya sahəsində istifadə etmək;
- ixtisasına uyğun müxtəlif ölçmələrdən və diaqnostik üsullardan istifadə etmək ;

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- elmi-tədqiqat qruplarının işini təşkil etmək;
- müxtəlif sahələrdə işləyən psixoloqların işinin səmərəliliyinin artırılmasına dair təklifləri işləyib hazırlamaq;
- elmi araşdırmaların nəticələrini kəmiyyət və keyfiyyətcə qiymətləndirmək.

### 4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensi-yaların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- xarici dildə neytral səs informasiyası və ritminin özünəməxsusluğunu psixologiya sahəsi üçün səciyyəvi olan tələffüz üslubunun əsas xüsusiyyətlərini ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyəti və adət-ənənələrini, nitq etiketi qaydalarını;<br>- Azərbaycanda ali təhsil sistemini, ali məktəblərin tələbə və müəllimlərinin vəzifələrini, ali təhsil müəssisəsində təlim prosesi və təhsilin məzmununu, didaktika və onun müasir problemlərini mühazirə və ona verilən müasir tələbləri, tərbiyə və özünütərbiyə, rəhbərlik və idarəetmə məsələlərini, elmi-tədqiqat (müəllim və tələbə) işinin metodikasını;<br>- psixologiyanın obyekti, predmeti və metodlarını, psixologiyanın əsas istiqamətlərini, tələbə psixologiyasını ;<br>- iqtisadi biliklərin meydana gəlməsinin inkişaf mərhələlərini, tarixi genetik əsaslarını, elmi-metodoloji prinsiplərini, iqtisadi kateqoriya və qanunların məzmununu və fəaliyyət mexanizmlərini, müasir dövrdə sosial-iqtisadi inkişaf modellərini və əsas istiqamətlərini;<br>- fəlsəfənin predmetini, onun dünyagörüşü rolunu və yerini ayırd etməyi, müasir şəraitdə biliklər sistemində fəlsəfənin əhəmiyyətinin | **14** | **MHF – B01**<br>*Xarici dil*<br><br>**MHF – B02**<br>*Ali məktəb pedaqogikası*<br><br>**MHF – B03**<br>*Psixologiya*<br><br>**MHF – B04**<br>*Seçmə fənn** | **6**<br><br><br>**4**<br><br><br><br>**2**<br><br><br>**2** | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-5**<br>**ÜK-6**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | artdığını, fəlsəfə ilə digər təbiət və sosial elmlər arasındakı münasibətləri dəqiq təsəvvür etməyi.<br><br>**bacarmalıdır:**<br>- psixologiya ixtisasına dair mətnləri oxumağı, tərcümə etməyi, annotasiya, referat, tezis, və s. yazmağı;<br>- mühazirə mətni hazırlamağı, mühazirə oxumağı, seminar məşğələlərini planlaşdırmağı və aparmağı, psixologiya sahəsində elmi-tədqiqat işini yerinə yetirməyi, bununla bağlı fərziyyələr irəli sürməyi, eksperiment aparmağı və nəticələri tətbiq etməyi;<br>- klassik və neoklassik iqtisadi məktəblərin, cərəyanların müddəaları və ideyalarının qarşılıqlı surətdə əlaqələndirilməsini, müasir dövrdə iqtisadi qanunların fəaliyyət mexanizmlərindən, tələb və prinsiplərindən, təsərrüfatçılıq mexanizmlərindən, sosial-iqtisadi inkişaf strategiyasından səmərəli istifadə olunmasını və onların hər birinin spesifik cəhətlərini, xüsusiyyətlərini dərk etməyi;<br>- fəlsəfədə maddi və mənəvi varlıq növlərinin vəhdəti və özünəməxsusluqlarını dərk etməyi, varlığın universal əlaqələrini, onların təsnifatını, növlərini ayırd etməyi, inkişafın universal qanunlarını və formalarını, dünyanın dərk olunması formalarını, onların xüsusiyyətlərini üzə çıxarmağı.<br><br>**yiyələnməlidir:**<br>- xarici dildə oxumaq və yazmaq vərdişlərinə, ali təhsil müəssisəsində tədris və tədqiqat işlərini aparmağa, tələbələrə pedaqoji və psixoloji yanaşma keyfiyyətlərinə;<br>- iqtisadi nəzəriyyənin metodlarına və inkişaf qanunauyğunluqlarına və onların müstəqil milli iqtisadiyyatın formalaşması və inkişafının tətbiqinə;<br>- elmi-fəlsəfi dünyagörüşünün cəmiyyətin və insanın normal həyat fəaliyyəti üçün zərurət olduğunu anlamağa, dünya – insan münasibətlər sisteminin ümumnəzəri əsaslarını və | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | konkret tərkib hissələrini adekvat mənalandırmağa . | | | | |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənlər bölümü**<br>Bu fənnin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- müasir psixologiyanın metodoloji əsaslarını, onun səviyyələrini, tarixini, prinsiplərini, əsas anlayışlarını və kateqoriyalarını;<br>- psixoloji tədqiqatın üsullarını;<br>- psixologiyanın əsas istiqamətlərini, yanaşmalarını, nəzəriyyələrin, paradiqmalarını və psixoloji konsepsiyaların inkişafının müasir tendensiyalarını;<br>- təkamül prosesində psixikanın mənşəyini və inkişafını;<br>- peşəseçmənin elmi-nəzəri və peşə əsaslarını;<br>- şəxsiyyət psixologiyasının əsas istiqamətlərini, yanaşmalarını, nəzəriyyələrini, paradiqmalarını və psixoloji konsepsiyaların inkişaf tendensiyalarını, əsas anlayışlarını və kateqoriyalarını, əsas prinsiplərini;<br>- ünsiyyət psixologiyasının müasir vəziyyətini, tədqiqi istiqamətlərini, ünsiyyətin tədqiqinin ümumetodoloji aspektlərini və tədqiqi metodlarını;<br>- psixoloji vəziyyətlərin tədqiqinin əsas istiqamətlərini, yanaşmalarını, nəzəriyyələrini, paradiqmalarını və psixoloji konsepsiyaların inkişafının müasir tendensiyalarını;<br>- yaradıcılığın psixoloji mexanizm-lərini və qanunuyğunluqlarını;<br>- uşaq psixologiyasında uşaq anadan olandan 6-7 yaşa qədər ki dövrün psixoloji xüsusiyyətlərini, qanunauy-ğunluqlarını, dinamikasını və spesifik cəhətlərini;<br>- yaş psixologiyasının zəruri bölmələri olan uşaq psixologiyası, kiçik məktəblilərin, yeniyetmələrin, erkən gənclik dövrünün, yaşlı insanların, qocaların psixoloji xüsusiyyətlərini;<br>- müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin psixoloji xüsusiyyətlərini və psixopatoloji simptom və sindromların diaqnostikasının metod və üsullarını;<br>- psixodiaqnostik metodlarla şəxsiy- | **76** | **MİF-B01**<br>*Psixologiya elminin müasir problemləri*<br><br>**MİF-B02**<br>*Psixologiya elminin tarixi və metodologiyası*<br><br>**MİF-B03**<br>Ali məktəbin müəyyən etdiyi fənn:<br><br>**MİF-B04**<br>*İxtisaslaşmaya ayrılan fənlər***<br><br>**MİF-B05**<br>*Seçmə fənn** | **4**<br><br><br><br><br>**2**<br><br><br><br><br>**4**<br><br><br><br><br>**42**<br><br><br><br>**24** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-20**<br>**PK-21**<br>**PK-22**<br>**PK-23**<br>**PK-24**<br>**PK-25**<br>**PK-26**<br>**PK-27**<br>**PK-28**<br>**PK-29**<br>**PK-30**<br>**PK-31**<br>**PK-32**<br>**PK-33** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yətin fərdi-psixoloji qiymətləndirilməsinin nəzəriyyəsini, prinsiplərini və instrumentlərini;<br>- hüquqi psixologiyanın hazırkı vəziyyəti, onun ayrı-ayrı sahələrinin inkişaf perspektivləri və tendensiyalarını;<br>- ibtidai istintaq zamanı, məhkəmə-psixoloji ekspertizasıda, məhkumların islahı prosesində tətbiq edilən metodları;<br>- hüquq-mühafizə orqanlarına seçilən namizədlərin peşə yararlığının tədqiqi metodlarını;<br>- cinayi davranışın formalaşmasının psixoloji mexanizmini, cinayətkarların tipologiyasını;<br>- inkişaf psixologiyası sahəsinin inkişafı tarixini, sahə elminin inkişafı metodologiyasını;<br>- -praktiki prosesləri düzgün təsəvvür etməyi, onların göstəricilərini qiymətləndirməyi və idarə etmək üçün proqnozların verilməsini;<br>- -sosial psixologiya elminin hazırkı vəziyyətini, onun inkişaf perspektivliklərini və tendensiyasını, sosial psixologiya sahəsinin inkişafı tarixini, sahə elminin inkişafı metodologiyasını;<br>- sosial qrupların tədqiqinin metodoloji məsələləri, qruplararası münasibətlərin idarə olunmasının psixoloji məsələlərini;<br>- pedaqoji psixologiya elminin hazırkı vəziyyətini, onun inkişaf perspektivliklərini və tendensiyasını, inkişafı tarixini, sahə elminin inkişafı metodologiyasını;<br>- inkişafetdirici təlimin psixoloji mexanizmlərini və qanunuyğunluqlarını;<br>- müxtəlif yaş dövrlərində şəxsiyyətin formalaşmasının psixoloji xüsusiyyətlərini;<br><br>**bacarmalıdır:**<br>- tədqiqatların metodoloji təhlilini aparmağı;<br>- psixoloji eksperimenti planlaşdırmaq və təhlil etməyi;<br>- psixoloji üsulları tətbiq etmək və | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | tədqiqat məqsədinə uyğun alınan nəticələri şərh etməyi;<br>- psixoloji faktların təhlili zamanı müstəqil mövqeyini elmi cəhətdə sübut etməyi;<br>- psixoloji və qeyri-psixoloji mətnləri fərqləndirmək, ədəbiyyatla tənqidi çalışmaq, elmi-psixoloji mətnlər yazmaq, elmi diskussiya aparmağı;<br>- psixologiyanın anlayışlar aparatından istifadə etməyi;<br>- müxtəlif psixoloji əlamətlərin diaqnostikasını aparmaq, onları düzgün emal etmək, alınan nəticələri şərh etməyi;<br>- psixoloji vəziyyətlər haqqında əsas faktları təhlil etməyi;<br>- ünsiyyətin diaqnostikasını və korreksiya yollarını müəyyən etməyi;<br>- uşaq və yaş psixologiyasının ayrı-ayrı tədqiqat metodlarını praktikaya tətbiq etməyi;<br>- əsas psixi pozuntunu, onun strukturunu və onun ifadə dərəcəsini düzgün təyin etməyi bacarmaq, mümkün korreksiya və bərpa imkanlarından yüksək səviyyədə istifadə etməyi;<br>- zədədən sonra əmələ gəlmiş funksiyaları bərpa etmək üçün praktik təcrübəyə yiyələnərək onlarla düzgün iş prinsipini qurmağı;<br>- hüquq psixologiyasının ayrı-ayrı tədqiqat metodlarını praktikaya tətbiq etməyi;<br>- şəxsi elmi araşdırmalarının nəticələrini təqdim etməyi;<br>- fundamental və tətbiqi psixologiya fənləri üzrə biliklərə əsaslanan üsullardan istifadə etməyi<br>- obyektin (şəxsiyyətlərin, ayrı-ayrı qrupların, cəmiyyətin) müxtəlif istiqamətlər üzrə dinamikasının psixoloji profilini qurmaq və üsullardan istifadə etməyi;<br>- şəxsiyyət, ayrı-ayrı qruplar və cəmiyyətlə bağlı elmi, təşkilati və tətbiqi məsələlərinin həllində yeni metod və metodikaları tətbiq etməyi;<br>- psixologiya üzrə elmi-tətqiqat işlərini təhlil etmək və nəticələri ümumiləşdirməyi; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - psixoloji vəziyyətlər haqqında əsas faktları təhlil etməyi;<br>- ünsiyyətin diaqnostikasını və korreksiya yollarını müəyyən etməyi;<br>- təlim-təhsil müəssisələrində psixoloji xidmət işini təşkil etməyi;<br><br>**yiyələnməlidir:**<br>- psixologiyanın prinsipləri, metodları və metodoloqiyasından istifadə etmək bacarıqları və vərdişlərinə;<br>- psixoloji biliyin tətbiqinə;<br>- alınmış biliklərin köməyilə peşəyə hazırlıq səviyyəsinin yüksəldilməsinə praktik tövsiyələr işləmək vərdişlərinə;<br>- şəxsiyyətin, ünsiyyətin, psixi proseslərin, vəziyyətlərin diaqnostika-sına;<br>- psixoloji faktların təhlili zamanı müstəqil mövqeyini elmi cəhətdən sübut etməyə;<br>- psixoloji və qeyri-psixoloji mətnləri fərqləndirməyə, ədəbiyyatla tənqidi çalışmağa;<br>- elmi-psixoloji mətnlər yazmağa, elmi diskussiya aparmağa,<br>- müxtəlif psixoloji məktəblərin elmi dili, terminologiyasından istifadə etməyə;<br>- psixoloji üsulları tətbiq etmək və tədqiqat məqsədinə uyğun alınan nəticələri şərh etməyə;<br>- yaradıcı qabiliyyətləri inkişaf etdirməyə, tədqiqatçılıq fəaliyyətinin səmərəli təşkilinə; yaradıcılığın stimullaşdırılmasının psixoloji təsir yollarına və üsullarına;<br>- şəxsiyyətdə təfəkkür xüsusiyyətlərini təhlil edib səciyyələndirməyə, təfəkkürün səviyyələrini və tiplərini aydınlaşdırmağa, yaradıcı təfəkkürün fəallaşdırılmasının yollarını müəyyən-ləşdirməyə;<br>- təfəkkürü inkişaf etdirməyə, tədqi-qatçılıq fəaliyyətinin optimal təşkilinə, təfəkkürün stimullaşdırılmasının psixo-loji təsir üsullarına;<br>- təfəkkürün ümumpsixoloji problemlərini, təfəkkür və məsələ həllini, təfəkkürə müxtəlif yanaşmaları, yaradıcı təfəkkürün səviyyələrini, təfəkkür və emosional inkişafın psixo- | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | loji məsələlərini, motivasiya və təfəkkürün qarşılıqlı əlaqəsinə.<br>- uşaqların psixoloji xüsusiyyətlərini öyrənmək və təcrübəyə tətbiqinin səmərəliliyinin yüksəldilməsinə yönələn tövsiyələr işləmək vərdişlərinə;<br>- psixi pozulmalar zamanı differensial diaqnostikanı düzgün təşkil etməyə, xəstəliklərə uyğun korreksiya, profilaktika və reabilitasiya işinin aparılması vərdişlərinə;<br>- -alınmış biliklərin köməyi ilə hüquq sisteminin səmərəliliyinin yüksəldilməsinə yönələn praktik tövsiyələr işləmək vərdişlərinə;<br>- differensial diaqnostikanı düzgün təşkil etməyi, xəstəliklərə uyğun korreksiya, profilaktika və reabilitasiya işinin aparılması vərdişlərinə;<br>- yaradıcı qabiliyyətləri inkişaf etdirməyə, tədqiqatçılıq fəaliyyətinin səmərəli təşkilinə, yaradıcılığın stimullaşdırılmasının psixoloji təsir yollarına və üsullarına;<br>- şəxsiyyətdə təfəkkür xüsusiyyətlərini təhlil edib səciyyələndirməyə, təfəkkürün səviyyələrini və tiplərini aydınlaşdırmağa, yaradıcı təfəkkürün fəallaşdırılmasının yollarını müəyyənləşdirməyə;<br>- alınmış biliklərin köməyilə peşəyə hazırlıq səviyyəsinin yüksəldilməsinə praktik tövsiyələr işləmək vərdişlərinə. | | | | |
| **MET-B00** | **Elmi tədqiqat işləri**<br>Magistr elmi-tədqiqat işini yerinə yetirməklə aşağıdakıları bilməli və bacarmalıdır:<br>- elmi-tədqiqat işlərini planlaşdırmağı;<br>- tədqiqat mövzusu seçməyi;<br>- ədəbiyyat siyahısının tərtibini;<br>- elmi-tədqiqat işi aparmağı;<br>-elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>-alınmış nəticələrin praktiki əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>-elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyən-ləşdirməyi;<br>-yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini; | **30** | Elmi tədqiqat təcrübəsi<br><br>Elmi pedaqoji təcrübə<br><br>Magistr dissertasiyasının hazırlanması və müdafiəsi | **6**<br><br>**6**<br><br>**18** | **PK-1** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;<br>-elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və magistrlik dissertasiyasında istifadə etməyi və s. | | | | |
| **Kreditlərin ümumi sayı** | | **120** | | **120** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94
o cümlədən:
- nəzəri təlim – 45 həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 15 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 14 həftə

## 5. Maddi-texniki tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060208 – Politologiya** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyuter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalara, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060208 – Politologiya** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

**7.2.** Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru

________________A.Mehrabov

«____» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin rəisi

______________İ.Mustafayev

«____»__________2012-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə Dövlət Təhsil Standartları hazırlayan işçi qrupun sədri

________________S.Hacıyev

«___» _____________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının «Pedaqogika və psixologiya» bölməsinin sədri

__________________ Ə.Ağayev

«___» _____________ 2012-ci il